

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 167 (23.078)

*6 sentyabr 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini deyən Yaponiyanın xarici işlər naziri Taro Kono ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğunu qeyd edib və əlaqələrimizin daha da inkişaf etdirilməsinə ümidvar olduğunu bildirib. Taro Kono Yaponiyanın "İtoçu" və "İnpeks" şirkətlərinin uzun illər "Azəri-Çıraq-Günəşli" və Bakı-Tbilisi-Ceyhan layihələrində pay sahibi olduqlarını vurğulayıb, "Azəri-Çıraq-Günəşli" üzrə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılmasının önəmini qeyd edib və bu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini bildirib.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bu əlaqələrin siyasi, iqtisadi və digər sahələri əhatə etdiyini vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, əməkdaşlığımızın gündəliyi çox genişdir və Yaponiyanın xeyli sayda şirkəti Azərbaycanda kontraktor, investor qismində uğurlu fəaliyyət göstərir. Eyni zamanda dövlətimizin başçısı iki ölkənin biznes dairələri arasında əməkdaşlığın daha da genişləndirilməsi yollarının müəyyən edilməsinin önəmini də vurğulayıb. Ölkəmizin turizm imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycana gələn turistlərin sayının ildən-ilə artdığını qeyd edib və respublikamızda turizm infrastrukturunun ən yüksək səviyyədə olduğunu deyib.

Söhbət zamanı kadr hazırlığı məsələlərində təcrübə mübadiləsinin önəmi vurğulanıb, iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsində investisiyaların təşviqinin və qorunmasının əhəmiyyətindən danışılıb, ölkələrimiz arasında iqtisadi əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm və digər sahələrdə genişləndirilməsinin böyük potensiala malik olduğu qeyd edilib.

## Şərur rayonunun Yengicə kəndində içməli su şəbəkəsi istifadəyə verilib





Muxtar respublikamızda insanların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında içməli su təminatı xüsusi yer tutur. Bu günə qədər muxtar respublikanın 4 şəhərində və 12 kəndində içməli su şəbəkəsi qurulmuşdur. İnsan amilinə verilən qiymətin daha bir ifadəsi olan bu tədbir Şərur rayonunun Yengicə kəndini də əhatə etmiş, kənddə yeni içməli su şəbəkəsi qurulmuşdur.

Sentyabrın 5-də Şərur rayonunun Yengicə kəndində içməli su şəbəkəsinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, Yengicə kəndinin içməli su şəbəkəsinin tikintisinə "Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində 2018-ci ilin fevral ayında başlanılıb. Su Şərur şəhərinə gələn ana xətdən götürülərək paylayıcı şəbəkəyə verilir. Layihəyə uyğun olaraq ərazidə diametri 63 millimetrdən 280 millimetrə qədər olan plastik borularla 30,9 kilometr içməli su xətti çəkilib, 894 evə su verilərək sayğac quraşdırılıb, 4638 sakin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunub. Su şəbəkəsinin üzərində 4 yanğın hidrantı, qəza zamanı məhəllə xətlərinin bağlanması üçün müxtəlif diametrli 130 siyirtmə və 3 suboşaldıcı quraşdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yengicə kəndində içməli su şəbəkəsinin və qədim hamamın istifadəyə verilməsi, eləcə də kəndin abad yaşayış məntəqələri sırasına daxil olması münasibətilə sakinləri təbrik edərək demişdir: Ölkəmizdə qəbul olunmuş Dövlət proqramları uğurla həyata keçirilir. Azərbaycan hərtərəfli inkişaf edir, insanların yaşayış səviyyəsi yaxşılaşdırılır, kəndlərimiz abadlaşaraq müasir yaşayış məntəqələrinə çevrilirlər. Şərur rayonunun Yengicə kəndi də abad yaşayış məntəqələrinin sırasına daxil olmuşdur.

Ali Məclisin Sədri demişdir: Şərur şəhəri və ətraf kəndlərin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin birinci mərhələsi – Şərur şəhərinin içməli su və kanalizasiya sistemləri ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilmişdir. Layihənin ikinci mərhələsi üzrə işlər davam etdirilmiş və Yengicə kəndində içməli su şəbəkəsi qurulmuşdur. Kənddə 30 kilometrdən artıq içməli su xətləri çəkilmiş, 900-ə yaxın su birləşmələri həyata keçirilmişdir. Bu gün Yengicə kəndinin 4 min 600-dən çox əhalisi keyfiyyətli içməli su ilə təmin olunub. Yaşayış məntəqələrinin içməli su təminatı mühüm məsələdir. Ona görə ki, su həyatdır, təmizlikdir, sağlamlıqdır. Əgər hansı yaşayış məntəqəsi təmiz içməli su ilə təmin olunursa, orada insanların sağlamlığı da qorunmuş olur. Bu amil nəzərə alınaraq ölkəmizdə içməli su layihələrinin həyata keçirilməsinə böyük diqqət və qayğı göstərilir. Muxtar respublikamızda da bu layihələr uğurla həyata keçirilir. Əksər rayonlarımızda artıq bu işlər başa çatdırılıb. Muxtar respublika əhalisinin 50 faizdən çoxu keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunur. Şərur rayonunda isə bu layihənin birinci mərhələsi başa çatdırılıb. Bu istiqamətdə işlər davam etdiriləcəkdir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada içməli su şəbəkələrinin yenidən qurulması ilə yanaşı, eyni zamanda suvarma su təminatının yaxşılaşdırılması istiqamətində də işlər görülür. Hazırda Kəngərli rayonunun Böyükdüz kəndində 600 hektara yaxın ərazidə yeraltı su şəbəkəsi qurulur və bu ilin sonunda istifadəyə veriləcəkdir. Bu ərazidə son illər aparılan işlər nəticəsində 2 min hektara yaxın əkinəyararlı torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Müasir içməli və suvarma su sistemlərinin qurulması insanların həyat səviyyəsinin yüksəldilməsinə və rahat yaşayışlarına xidmət edir.

Ali Məclisin Sədri bildirmişdir ki, Yengicə kəndində vaxtilə yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikilməsi, yolun yenidən qurulması, abadlıq işlərinin aparılması, bu gün isə içməli su şəbəkəsinin və qədim hamamın bərpadan sonra istifadəyə verilməsi kəndin simasını tamamilə dəyişmişdir. Kənd dayanıqlı təbii qaz və elektrik enerjisi, rabitə və sürətli internetlə təmin olunur. Yaradılan bu şərait kənd sakinlərinin rahat yaşayışına xidmət edir. Yengicə kəndinin qədim tarixi vardır. Bərpa işlərindən sonra istifadəyə verilən hamam, o cümlədən vaxtilə burada ilk dünyəvi məktəbin fəaliyyət göstərməsi kəndin tarixinin qədimliyindən xəbər verir. Azərbaycanın inkişafında, dövlətçiliyində bu kəndin yetirmələrinin xidmətləri olmuşdur.

Ali Məclisin Sədri bir daha sakinlərə təbriklərini çatdırmış, kənddə qurulanların qorunmasının, abadlığa, təmizliyə əməl olunmasının vacibliyini bildirmişdir.

Yengicə kənd ağsaqqalı İlyas Kazımov çıxış edərək deyib: Muxtar respublikada geniş tikinti-quruculuq işləri aparılır. Naxçıvan günü-gündən gözəlləşir. Qədim diyarın inkişafı, müasirliyi qürur doğurur. Həyata keçirilən quruculuq tədbirləri Yengicə kəndini də əhatə etmiş, kənd müasir yaşayış məntəqəsinə çevrilmişdir. Bu gün Yengicə kəndində şəhər rahatlığı yaradılıb. Sovetlər Birliyi dövründə heç bir kənddə içməli su sistemi çəkilməmişdi. Kəndimizin sakinləri uzun illər içməli su təminatından əziyyət çəkmişlər. Lakin bu gün Yengicə kəndi 24 saat Dünya Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə təmin edilir. Bu, müstəqil ölkəmizdə insan amilinə verilən ən yüksək qiymətdir. Həmçinin kəndimizdə 18-ci əsrə aid olan memarlıq abidəsi – Yengicə hamamı ilkin görkəmi və qədim memarlıq quruluşu saxlanılmaqla bərpa edilmişdir. Bir kəndin timsalında görülən bu işlər onu deməyə əsas verir ki, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan haqqındakı düşüncələri, arzuları reallığa çevrilib. Təbii ki, bütün bunlar da qurucu rəhbərin öz vətəninə, elinə bağlılığının nəticəsidir. İlyas Kazımov yaradılan şəraitə görə kənd sakinləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri Yengicə kəndinin içməli su şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə salmışdır.

Sonra Ali Məclisin Sədri sakinlərlə söhbət edərək demişdir: Quruculuq tədbirlərini o ölkədə həyata keçirmək mümkündür ki, orada sabitlik, iqtisadi inkişaf və seçilmiş düzgün yol vardır. Azərbaycanın yolu da Heydər Əliyev yoludur. Ölkəmiz Heydər Əliyev yolu ilə gedir. Dövlət də, əhali də öz üzərinə düşən vəzifələri yerinə yetirir. Nəticədə, ölkəmiz güclənir, iqtisadi qüdrəti artır. Yengicə kəndinin torpaqları bərəkətli torpaqlardır. Kənddə içməli və suvarma su problemləri həll olunub. Ona görə də torpaqlar əkilməli, sakinlər ölkəmizin inkişafına və dövlətçiliyimizin möhkəmləndirilməsinə bundan sonra da öz töhfələrini verməlidirlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Yengicə hamamı bərpa olunmuşdur





Abidələr hər bir xalqın tarixi yaddaşıdır. Muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması ilə yanaşı, onların bərpası da diqqətdə saxlanılır. Son illər tarixi abidələrimiz – qalalar, türbələr, məscidlər, buzxanalar və hamamlar ilkin görkəmi saxlanılmaqla bərpa olunur.

Sentyabrın 5-də Yengicə kəndindəki qədim hamam bərpadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Ali Məclisin Sədri çıxış edərək demişdir: Bu gün Yengicə kəndində tarixi abidə bərpa olunaraq istifadəyə verilir. Yengicə hamamı xalqımızın mədəniyyətinin göstəricisidir. Hamam iki əsrdən artıq bir dövrdə bu ərazidə yaşayan insanların həyat şəraiti, yaşayış səviyyəsi haqqında məlumat verir. Hamam təmizlik, sağlamlıqdır. Ona görə də vaxtilə insanların həyatına, sağlamlığına dəyər verənlər öz vəsaitləri hesabına Yengicə hamamını tikdirmiş və əhalinin istifadəsinə vermişlər. Uzun illər Yengicə və ətraf kəndlərin əhalisinə xidmət göstərən hamam bu gün tarixi abidə kimi bərpa olunmuş, içərisində xidmət sahələri yaradılmışdır.

Ali Məclisin Sədri demişdir: Hər bir abidənin qorunması və bərpası xalqımızın mədəni həyatının, tarixinin qorunması və yaşadılması deməkdir. Muxtar respublikamızda tarixi abidələr bərpa olunur. Bərpa olunan bəzi abidələr isə müəyyən məqsədlər üçün istifadə edilir. Şərur rayonunun Cəlilkəndindəki qədim buzxana bərpa olunduqdan sonra orada xalçaçılıq, rəssamlıq və digər sahələr yaradılıb.



Bu il Qarabağlar Türbə Kompleksi və Yengicə hamamı bərpa olunaraq istifadəyə verildi. Hazırda Qazançı körpüsündə bərpa işləri aparılır. Bütün bunlar isə qədim tariximizin müasir dövrdə yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Eyni zamanda abidələrimizin bərpa olunması ölkəmizə olan marağı artırır.

Ali Məclisin Sədri Yengicə hamamını tikənlərə ehtiramını ifadə etmiş, abidənin bərpasında əməyi olanlara təşəkkürünü bildirmiş və burada fəaliyyət göstərəcək sənətkarlara uğurlar arzulamışdır.

Qədim hamamda lazımi iş şəraiti ilə təmin olunan dərzi Gülbəniz Əkbərova demişdir: Muxtar respublikanın hərtərəfli inkişafı Şərur rayonunu da əhatə edib. Tariximizi özündə yaşadan Yengicə hamamının bərpa olunması da bu sahədə görülən işlərin davamıdır. Mən 40 ildir dərzi işləyirəm. Lakin bu günə qədər mənzilimdə fəaliyyət göstərmişəm. Ayrıca iş yerim olmayıb. İllərdən bəri ən böyük arzum o idi ki, belə gözəl, geniş bir məkanda işləyim, evimdə şəraitsizlik üzündən öhdəsindən gələ bilmədiyim işləri iş otağımda həyata keçirim, insanlara daha keyfiyyətli xidmət göstərim. Bu gün artıq bu arzuma çatmışam. Hərtərəfli iş şəraiti və avadanlıqlarla təmin olunmuşuq. Çalışacağıq ki, yaradılan şəraitdən səmərəli istifadə edərək sakinlərə nümunəvi xidmət göstərək. Gülbəniz Əkbərova yaradılan şəraitə görə burada işlə təmin olunan sənətkarlar və peşə adamları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, on səkkizinci əsrdə tikilən Yengicə hamamının quruluşu səkkizguşəli formada olub, xaricdən 2 iriölçülü günbəzlə tamamlanır. Qapı və bacaları bir qayda olaraq, yuxarıda günbəzvarı formada tamamlanır. Giriş qapısı cənubdan olan hamam dörd salondan ibarətdir.

Yengicə hamamı iyirminci əsrin 80-ci illərinə qədər fəaliyyət göstərmişdir. Baxımsızlıq səbəbindən dağılmaq vəziyyətində olan bu tarixi abidədə 2017-ci ilin mart ayından etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə bərpa işlərinə başlanmışdır. Hazırda hamamın ümumi sahəsi 420 kvadratmetrdir. Tarixi binada 7 sahə üzrə xidmət təşkil olunmuşdur. Burada 2 dərzi, qadın və kişi bərbəri, fotoqraf, papaqçı, çəkməçi və musiqi alətləri ustası olmaqla, 8 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri Yengicə hamamının "Muzey günləri" qrafikinə daxil edilməsi, muxtar respublikada yaşayan və fəaliyyət göstərən sənətkarların qeydiyyata alınması, eləcə də onların bundan sonra da lazımi iş şəraiti ilə təmin olunması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# İnsan əməyinin bəhrəsi

***"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracına şərait yaradır və arıçılıqla məşğul olmaq istəyən sahibkarlıq subyektlərinin sayı ildən-ilə artır.***



"Arı vuran pətəkdən qorxmaz", – deyib atalarımız. Belə zəhmətkeş arıçılarımızdan biri də Şahbuz rayon sakini Asif Babayevdir. O, deyir ki, arıçılıq bu diyarda qədim zamanlardan bəri formalaşıb. Babam deyərdi ki, vaxtilə bu yurdun dağ kəndlərində "gərməşov" adlı kəskin, spesifik iyli kol bitkisinin hər il pöhrələyən cavan şivlərindən arı səbəti toxunardı. Elə indinin özündə də bəzi dağ kəndlərində belə arı səbətlərinə rast gəlmək olur. Müasir arı pətəkləri, əsasən, taxta qutu formasındadır. Belə qutularda saxlanılan arı ailələrini zərərvericilərdən və xəstəliklərdən qorumaq asandır. Müxtəlif xəstəliklərə qarşı sahibkarlara hər cür dərman və biopreparatların verilməsi isə bu maraqlı, faydalı, iqtisadi cəhətdən gəlirli sahəyə dövlət qayğısının daha bir göstəricisidir, – deyə əlavə edir.

Bal arılarının ömrü iş mövsümündə, adətən, 25-30 gün olur. Ona görə də arı ailəsinə qırxlı çağa qədər gündəlik qayğı göstərilməlidir. Arıçılıqda yem bazası başlıca şərtdir. Bu zəhmətkeş canlılar ətraf mühitdən müxtəlif bitki növlərinin çiçəklərindən, tumurcuqlarından, gövdə çatırından, yetkin meyvələrin şirələrindən qidalanırlar. Onların çəkdikləri nektar isə arının gündəlik qidalandırdığı yeni sürfələrə, şan çəkilişinə, üskük hazırlığına, arı südünə, çiçək tozuna, muma, bərəmuma sərf edilir.

Müsahibim bildirir ki, arı xüsusi təmizlik sevir. Onu qarışqadan və çöl şəraitində digər zərərli həşəratlardan qorumaq üçün pətəyin dörd bir tərəfini müxtəlif dərman vasitələri ilə mühafizə etmək lazımdır.

Halal, zəhmətkeş arı məhsuluna xələl gətirməyən müsahibim təmiz və xalis bal hasilatında təcrübəyə malik olduğu üçün müştəriləri də çox olur. O deyir ki, insanların bizə müraciət etməsinin əsas səbəbi təbii bal satmağımızla bağlıdır. Əsl bal qaldıqda xarlayıb ağarır. Buna balın bitməsi, ya da xalis bal deyirlər. Ancaq saxta balda belə xüsusiyyət olmur.

Naxçıvanda bal, əsasən, avqustun ortalarında hasilə gəlir. O, öz dadı, görünüşü və digər üstün keyfiyyətlərinə görə ölkəmizdən kənarda yaxşı tanınır və yüksək qiymətləndirilir. Müsahibim şan bal və süzmə balın bir-birindən fərqini də izah etdi:

– Şan balın tərkibi mum və müxtəlif müalicəvi maddələrlə zəngin olduğundan təsir gücü daha yuxarıdır. Süzmə balı hazırlayarkən xüsusi alətlə çərçivədəki balın üzü sivrilir, balsüzən maşında sürətlə fırladılır ki, bütün üsküklərin balı süzülə bilsin. Balımız süzülüb hazır olduqdan sonra qonum-qonşuya da pay veririk. Bir atalar sözündə də deyilib ki, verdin adını, yığdın yadındı, yedinsə, dadındı…

Asif Babayev arıların qışlaması üçün aparılan hazırlıqlar barədə danışaraq bildirdi ki, hər arı ailəsi üçün bal çərçivələri qışa ehtiyat yem kimi saxlanmalıdır. Yazda isə arılar işə başlarkən ehtiyat yemi qurtaran arılara şirə vermək lazımdır. Xüsusilə də zəif arı ailələrinə qulluq edilməzsə, onlar acından məhv ola bilər. Bal hasilatı mövsümü başlayanda isə arılara əlavə qida verməyə ehtiyac yoxdur, çünki topladıqları şirə onları yaşadır.

Tərkibi mineral maddələrlə zəngin olan Naxçıvan balı və arıçılıq məhsulları həm də müalicəvi əhəmiyyətə malikdir. Müsahibim onu da qeyd etdi ki, balın qaymağı ilə inək südünün qarışığının bir sıra xəstəliklərin müalicəsinə çox böyük təsiri var. Hələ qədimdən el arasında "mumurqan" adlı məlhəm var idi ki, bu xüsusən dağ yerlərində yaranan dəri çatları üçün istifadə olunurdu. Ümumiyyətlə, bal, mum, bərəmum, arı südü, arı zəhəri əksər xəstəliklərin dərmanı olan arıçılıq məhsullarıdır. Onlardan qiymətli dərmanlar hazırlanır. Həmçinin baldan müxtəlif şirniyyatlar, doşab və şərbətlər də hazırlanır ki, bu da mətbəx mədəniyyətimizin zənginləşməsinə öz töhfəsini verir.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan brendi *"6-cı Çin-Avrasiya"* sərgisində nümayiş etdirilib

29 avqust – 3 sentyabr 2018-ci il tarixlərdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Çin Xalq Respublikasının Urumçi şəhərinə ixrac missiyası təşkil olunub.




İxrac missiyası çərçivəsində avqustun 30-dan başlayaraq "6-cı Çin-Avrasiya" sərgisində "Made in Azerbaijan" vahid ölkə stendi altında ölkəmizdə istehsal olunan qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə məhsulları sərgi ziyarətçiləri tərəfindən böyük maraqla qarşılanıb.

Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi, yerli məhsulların Çin bazarına çıxarılması, ixracın stimullaşdırılması, həmçinin iki ölkənin iş adamları arasında əməkdaşlığın təşviqi məqsədilə həyata keçirilən tədbirdə 21 sahibkarlıq subyekti ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi iştirak edib. Sərgidə həmin müəssisədə istehsal edilən 16 çeşiddə qazlı və qazsız mineral sular nümayiş olunub.

Sərgi çərçivəsində "Sirab" mineral suyunun Çinə ixracına dair həmin ölkənin şirkətlərinin rəsmiləri ilə işgüzar görüşlər keçirilib, əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Sosial qayğıya ehtiyacı olan uşaqlar məktəbli forması və dərs ləvazimatları ilə təmin ediliblər



Muxtar respublikamızda gələcəyimiz olan uşaqlar, o cümlədən sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar daim dövlətimizin diqqət və qayğısı əhatəsindədirlər. Onların sağlam böyüməsi, biliklərə yiyələnmələri, intellektual inkişafı, xüsusi istedada malik olanların aşkara çıxarılması, milli-mənəvi dəyərlərə sadiq vətənpərvər gənc kimi formalaşması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Qeyd olunan tədbirlərin davamı olaraq 15 sentyabr – Bilik Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə aztəminatlı,valideynlərini itirmiş, sağlamlıq imkanları məhdud uşaqlarla görüş keçirilib. Təhsil Nazirliyində təşkil olunan tədbiri giriş sözü ilə təhsil naziri Rəhman Məmmədov açaraq dövlətimizin xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almalarına göstərdiyi qayğıdan bəhs edib və şagirdlərə yeni tədris ilində uğurlar arzulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova muxtar respublikada sosial qayğıya ehtiyacı olan uşaqlara yaradılan şəraitdən söhbət açıb və şagirdləri qarşıdan gələn Bilik Günü münasibətilə təbrik edərək onlara təhsildə müvəffəqiyyətlər arzulayıblar.

Tədbirdə iştirak edən valideyn Fatma Məmmədova göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edib.

Sonra aztəminatlı, valideynlərini itirmiş məktəbli uşaqlara və sağlamlıq imkanları məhdud şagirdlərə məktəbli geyim forması, məktəbli çantası və dərs ləvazimatları təqdim edilib.

Qeyd edək ki, Təhsil Nazirliyi hər iki valideynini itirmiş 44, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sağlamlıq imkanları məhdud 275, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi isə aztəminatlı ailələr üzrə 70 olmaqla, ümumilikdə, 389 uşağı təhsil sovqatı ilə sevindirib.

Həmin gün muxtar respublikanın rayonlarında da analoji tədbirlər keçirilib.

**Nail ƏSGƏROV**

## "İstedad-XXI əsr" hazırlıq kurslarında yüksək nəticə göstərən məzunlarla görüş

*Hər il olduğu kimi, bu il də "İstedad-XXI əsr" hazırlıq kurslarında yüksək nəticə göstərən abituriyentlərlə görüş keçirilib.*

"İstedad-XXI əsr" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktor müavini Arzu Abdullayev tədbirdə çıxış edərək bildirib ki, bu gün müstəqil Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin siyasi kursu bütün sahələrdə uğurla davam etdirilir. Təhsil sahəsində həyata keçirilən əhəmiyyətli tədbirlər də bu siyasətin üzvi tərkib hissəsidir. Aparılan islahatlar Azərbaycan təhsilinin dünyaya inteqrasiyasına, milli və dünyəvi dəyərlər zəminində yüksəlişinə layiqincə xidmət etməkdədir. Muxtar respublikamızda bir-birinin ardınca tikilib istifadəyə verilən ən müasir maddi-texniki bazaya malik məktəblər, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilən tədbirlər bu baxımdan xüsusi dəyərə malikdir.

"İstedad-XXI əsr" hazırlıq kursları fəaliyyətə başladığı 4 tədris ili ərzində hər il 99 və ya 100 faiz qəbul nəticəsi verib. 59 nəfər 600 baldan yuxarı nəticə göstərib, bunlardan 5 nəfəri isə Prezident təqaüdünə layiq görülüb. Builki tədris ilində də kursun qəbul nəticələri 100 faiz olub. Onlardan 99 məzun 400, 51 məzun 500, 17 məzun isə 600 baldan yuxarı nəticə göstərib. Kursu bitirən məzunların 85 faizi Naxçıvanda fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrini seçiblər.

Hər il olduğu kimi, bu il də yüksək nəticə göstərən abituriyentlərə kurs tərəfindən birdəfəlik pul mükafatı və hədiyyələr verilib. Onu da xatırladaq ki, həmin məzunlar, eyni zamanda topladıqları bala görə aylıq 50-80 manat məbləğində tələbə təqaüdü ilə də təmin olunacaqlar.

Kursun builki məzunlarından 691 bal toplayan Arzu Əliyeva və 672 bal toplayan Cəfərsadiq Ələkbərov yüksək nəticə əldə etdikləri kursda yaradılan hərtərəfli şəraitin nəticəsi olduğunu deyib və kurs kollektivinə öz minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

## Məktəbli yarmarkasında çeşid bol, qiymətlər isə münasibdir

***Muxtar respublikamızda bütün sahələr kimi, təhsil də dövlət qayğısı ilə əhatə olunub. Təhsil müəssisələri üçün yeni binaların tikilərək müəllim və şagirdlərin istifadəsinə verilməsi, məktəblərin ən müasir maddi-texniki baza ilə təchiz olunması, bacarıqlı pedaqoqların tədrisə cəlbi bu istiqamətdə həyata keçirilən əsas tədbirlərdəndir. Bütün bunlarla yanaşı, şagirdlərin məktəbli geyimləri və dərs ləvazimatları ilə təminatı da diqqət mərkəzində saxlanılır, hər il ənənəvi məktəbli yarmarkaları təşkil olunur. Nəticədə, valideynlərin də qayğıları xeyli azalıb.***



Artıq bir neçə gündür ki, Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda növbəti məktəbli yarmarkası təşkil olunur. Bundan başqa, muxtar respublikanın bölgələrində də analoji tədbir keçirilir ki, bu da valideynlərə uzaq məsafə qət etmədən övladlarına lazım olan ləvazimatları rahat şəkildə almalarına imkan verir. Yarmarkada qiymətlərin ucuz olması və çeşid zənginliyi hər kəsin ürəyincədir.

Səhərin erkən saatlarında valideynləri övladları ilə birgə yarmarkada məktəbli geyimi, dərs ləvazimatı seçərkən görmək olar. Buradakı qiymətlər və təklif olunan ləvazimatlarla maraqlanmaq məqsədilə Mərkəzi bazara yollandıq, yarmarkaya üz tutan valideyn və şagirdlərin fikirlərini öyrənməyə çalışdıq. Görünən o idi ki, satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, qiymətlərin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanır. Yarmarkada olarkən söhbətləşdiyimiz satıcılar, valideyn və şagirdlər yaradılmış şəraitdən, göstərilən xidmətdən ağızdolusu danışdılar.

Yarmarkada məktəbli ləvazimatları ilə yanaşı, dərs vəsaitlərinin, test kitablarının, bədii ədəbiyyat nümunələrinin də satışa çıxarılması alıcıların marağına səbəb olub. Burada olarkən qələbəlik müşahidə etdik və ilk olaraq alıcı sıxlığı olan piştaxtaya yaxınlaşdıq. Müştərilərə təmkin və nəzakətlə xidmət göstərən satıcı Elvin Əliyev suallarımızı cavablandırdı. O qeyd etdi ki, yarmarka təşkil olunan gündən böyük alıcı kütləsi ilə qarşılaşır. Demək olar ki, məktəbli formalarına olan tələbat gündən-günə artır.

Valideyn Ceyhun Məmmədov çeşid bolluğundan və satış qiymətlərindən çox razıdır. Bu barədə dediklərindən:

– Əvvəllər övladlarımız üçün geyim dəsti, dərs ləvazimatları əldə etməkdən ötrü ayrı-ayrı ünvanlara üz tutardıq. Bazar və dükanlardakı qiymətlər münasib olmadığından bəzən evə əliboş qayıdardıq. Bu baxımdan artıq bir neçə ildir ki, təşkil olunan ənənəvi məktəbli yarmarkası biz valideynlərin işini xeyli asanlaşdırıb. Bu da imkan verir ki, daha az vəsaitlə ləvazimatların hamısını və ən əsası da keyfiyyətlisini alaq. Yarmarkanın təşkilinə görə valideynlər adından dövlətimizə minnətdarlığımı bildirirəm.

Yarmarkada satış yerlərini müşahidə edərkən qucaqdolusu dərs ləvazimatı ilə qarşımıza çıxan məktəbli Polad Məmmədov və Cəmilə Səfərova da öz sevinclərini bizimlə bölüşdülər. Məktəblilər qeyd etdilər ki, valideynləri onları hər il təşkil olunan bu yarmarkaya gətirir. Çünki burada sərfəli qiymətə bütün məktəbli ləvazimatlarının keyfiyyətlisini ala bilirlər.

Alıcılarla yanaşı, satıcıların da razı qaldıqları elə üzlərində yaranan təbəssümdən aydın olurdu. Onlar yaradılan şəraitdən, geniş alıcı kütləsindən ürəkdolusu danışdılar, bu xeyirxah işin təşkilatçılarına minnətdarlıqlarını bildirdilər.

Sonda onu da qeyd edək ki, məktəbli yarmarkası sentyabrın 16-dək davam edəcək. Bu müddət ərzində valideynlər istənilən məktəbli ləvazimatını münasib qiymətə ala biləcəklər. Süni qiymət artımının qarşısının alınması məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən lazımi nəzarət tədbirləri görülür və çox yaxşı haldır ki, hər il olduğu kimi, bu il də məktəblilərimiz sevdikləri doğma təhsil ocaqlarına zövqlü geyim və dolu çanta, sevinc və ruh yüksəkliyi ilə qədəm qoyacaqlar.

**Pərviz HACILI**

*Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrə bağlı 19 may 2018-ci il tarixdə keçirilən tədbirdə verilmiş tapşırıqların icrasının təmin edilməsi diqqət mərkəzində saxlanılır.*

## Esse imtahanı mərhələsi keçirilib



Bu məqsədlə sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında vakant mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün bu il iyun ayının 1-də elan edilmiş müsabiqənin esse imtahanı mərhələsi keçirilib.

Müsabiqəyə çıxarılmış vakant vəzifələrin tutulması üçün 20 namizəd test imtahanı verib, onlardan keçid balını toplamış 5 nəfəri esse mərhələsində iştirak emək hüququ qazanıb. İmtahan başlamazdan əvvəl iştirakçılar imtahan qaydaları haqqında məlumatlandırılıb, esse yazmaq üçün onlara 60 dəqiqə vaxt verilib. İmtahanda obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə videoçəkiliş aparılıb.

İmtahanda iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusu təqdim edilib.

İştirakçılar esse yazarkən fikirlərini məntiqi ardıcıllıqla ifadə etməli və abzaslarla fərqləndirməli, təhliletmə, tətbiqetmə, ümumiləşdirmə və məntiqi nəticəçıxarma qabiliyyətlərini nümayiş etdirməli, fikir və düşüncələrini anlaşıqlı, məntiqli və aydın, ədəbi dilin normalarına uyğun şəkildə ifadə etməlidirlər.

Yazı işləri yoxlanılarkən yuxarıdakı meyarlar nəzərə alınıb və iştirakçıların yaradıcılıq qabiliyyətləri qiymətləndirilib.

İmtahanın nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Muxtar respublikada qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 24 əcnəbi aşkarlanıb

*Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər ötən ay ərzində də davam etdirilib.*

Avqust ayı ərzində xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 24 əcnəbi aşkarlanıb. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aşkarlanmış əcnəbilər barəsində müvafiq tədbirlər görülüb.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 1067 müraciət daxil olub. Bu müraciətlərdən 99-u əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, müvəqqəti olma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib.

Avqust ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 968 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 396-sı elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## Naxçıvanın folklor irsindən bəhs edən yeni kitab




***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin elmi işçisi Nazirə Əsgərovanın "Folklorun poetik özünəməxsusluğu: mühit, janr, ənənə" adlı kitabı işıq üzü görüb.***

Yeni tədqiqat əsərində şifahi xalq ədəbiyyatının janrlarını öz elmi araşdırmalarında geniş tədqiq edən müəllifin müxtəlif illərdə qələmə aldığı məqalələri toplanılıb.

Kitabda Naxçıvanda şifahi xalq ədəbiyyatı sahəsində folklor mühitinin poetik özünəməxsusluğu, janrların səciyyəvi xüsusiyyətləri, habelə qədim diyarın xalq yaradıcılığındakı ənənəsi haqqında məlumatlar əksini tapıb. Nəşrdə, həmçinin dastanlar, atalar sözləri və məsəllər, bayatılar, nağıllar, laylalar, xalq oyunları və digər janrların bölgə mühitində yeri, xarakteri və tarixinə nəzər salınıb.

Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədovun və həmin şöbənin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Çinarə Rzayevanın elmi redaktorluğu ilə çap olunan kitab Naxçıvan folklor mühitinin öyrənilməsi baxımından əhəmiyyətli elmi mənbədir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

Etnoqrafiyamız

## El arasında meyvə qurudulması ənənələri

***Belə bir deyim var ki, yayın bolluğu qışın yavanlığıdır. Atalarımız bu sözləri əbəs deməyiblər. Tarixboyu Naxçıvan diyarı əkilib-becərilən meyvələrin çeşidinə, dadına görə seçilib. Zəngin meyvəçilik ənənələrinə malik olan bu diyarda ta qədimdən min bir zəhmət hesabına hasilə gələn meyvələr yayın sonu – erkən payızdan başlayaraq qurudulmuş, qış tədarükü görülmüşdür.***

Diyarımız müxtəlif meyvə çeşidləri ilə zəngindir. Becərilən ərik sortlarının əksəriyyətinin (alça-ərik, ağ növrəstə, qırmızı növrəstə, haqverdi əriyi, ağcanabat, ağ təbərzə və ya balyarını, toxum şəmsi, qara və sarı təbərzə, əbutalıbi, xosrov şahı) vətəni məhz Naxçıvandır. Tezyetişən rəcəbi, loğazbəyi, darağı kimi alma, həmçinin siniarmud, lətənzi, xoyi, şəkəri, abasbəyi kimi armud sortları ilə yanaşı, xalq arasında qızıl armud, cəlov, adamboğan, turşu armudu kimi sortlar da daha çox Naxçıvanda becərilir. Xurmayı və Didivar iydə sortlarının vətəni Babək rayonunun Didivar kəndi hesab edilir. İnnabı kimi iydə sortları da Naxçıvanda çox qədim dövrlərdən əhalinin əkib-becərdiyi meyvələrdir. Xalq bu meyvə sortlarını uzun illərin təcrübəsinə əsasən çeşidləyir. Bəziləri təzə-tər istifadə edildiyi halda, bəzi növlər qurudularaq qış azuqəsinə çevrilir, artığı isə satış üçün istifadə edilirdi.

Tarixi mənbələrə görə, çar Rusiyası dövründə Naxçıvan quberniyasında 2528 desyatin meyvə bağı olub. Əhali yaş meyvəni, əsasən, yaylaqlara daşıyaraq pendir, yağ, şor, ətlik heyvanlar ilə mübadilə edib. Məhəmməd Həsən Baharlı "Azərbaycan" kitabında qeyd edir ki, inqilaba qədər (1917) meyvələr çox vaxt günün altında qurudular və qışa tədarük edilərdi. Bu, çox primitiv şəkildə yerinə yetirilər, məhsul görünüşünə görə görkəmsiz və olduqca çirkli, boz-bulanıq alınardı. Əsasən, alma və armud, alça, zoğal, gavalı, əncir, tut, ərik, şaftalı, albalı qurudulardı. XX əsrin əvvəllərində dəmir yolunun çəkilməsi Naxçıvanda quru meyvə istehsalının daha səmərəli yolla artmasına səbəb oldu. Bu dövrdə bağçılıq məhsulları əmtəə səciyyəsi kəsb edərək qurudulmuş halda Moskva, Nijni-Novqorod, İrəvan, Tiflis şəhərlərinə, Qars vilayətinə və başqa yerlərə aparılardı.

Rus tədqiqatçısı V.Qriqoryev 1833-cü ildə qeyd edir ki, Ordubad əyalətində becərilən meyvələr bütün Zaqafqaziyada ən yaxşı meyvə hesab edilirdi. Naxçıvan əhalisi də meyvələrin qurudulmasının xalq üsullarından məharətlə istifadə edər, öz ehtiyaclarını ödəməklə yanaşı, əmtəəlik məhsul da hazırlayardı. Qurudulmuş meyvələr içərisində tutun özünəməxsus yeri vardır. Yaşlıların söylədiyinə görə, "aclıq illərində" (1941-1945-ci illər) həyətlərdə olan tut ağacı böyük nemət sayılıb, çörəyi əvəz edib. Tutdan xalq təbabətində qiymətli dərman hesab edilən və ərzaq məhsulu olan doşab hazırlamaqla yanaşı, bu meyvənin qurudulmuşu indi də ən yaxşı çərəz hesab edilir. Tut ağacı, təxminən, bir ay ərzində dəfələrlə çırpılır. Normal bir tut ağacından 50-100 kiloqram tut yığmaq mümkündür. Bunun üçün ya əvvəlcədən ağacın altına çadır, ya da xalqın "cərik" adlandırdığı parça açılır, bir neçə nəfər də onların künclərindən tutmaqla, çırpılacaq hər budağın altında açıq saxlayır. Çırpılmış tutu evlərin damında, həyətlərdə günəşli yerdə müxtəlif parça üzərində sərib qurudurlar. Tam quruduqdan sonra onu su ilə yuyub tozdan, çör-çöpdən təmizləyib, kölgədə yenidən qurudub saxlamaq üçün qablara yığırlar. Saxlanacaq quru tutun xarab olmaması üçün onu ya kükürd tüstüsünə verir, ya da şüşə qablara yığıb ağzını bağlayırlar. Bəzən xarab olmasın deyə, quru tutu duzlayırlar. Amma bu üsul o qədər də effektli deyil. Quru tutdan istifadə edəndə duzunun getməsi üçün ikinci dəfə yuyulmalıdır, bu isə tutun şirəsinin bir qədər itməsinə səbəb olur.

Çəyirdəkli meyvələr çəyirdəyi çıxarılaraq da qurudulur. Bu üsulla qurudulan meyvələrə xalq arasında bəzən "axta" da deyirlər. Əriyin qurudulması isə bir qədər fərqlidir. Onun dənəsi çıxarılır, sındırılaraq ləpəsi yenidən içərisinə qoyularaq qurudulur. Bu cür qurudulan əriklərdən qaysava bişirmək üçün istifadə edilir. Bəzi bölgələrdə əriyə qaysı deyilməsi də bununla əlaqəlidir. Bundan başqa, meyvələrdən fərqli olaraq qurudulacaq ərik növləri çeşidlənir. Qurutmaq üçün, əsasən, ağcanabat, ağ təbərzə və ya balyarım, əbutalıbi, badamı ərik, xosrov şahı və ağ ərikdən istifadə edilir. Qurudulmuş təbərzə əriyindən xoşab bişirilir. Digər ərik növləri qurudulduqda boz-bulanıq və ya qara rəng aldığı üçün onlardan əmtəəlik məhsul əldə etmək olmur. Əbutalıbi, ağ təbərzə ağacdan asanlıqla tökülmür, ağacın üzərində quruduqda belə, şəffaf, xurma rəngində olur.

Gavalı və alçanı qurutmaq üçün həddən artıq yetişməyənləri kiçik səbətdə, aşsüzəndə duzlu suya salıb az müddət qaynadırlar. Pörtlədilmiş meyvələr parça üzərinə sərilir və qurudulur. Bu cür qurudulan meyvələr şəffaf rəng alır. Sarı rəngli gavalının qurusu daha çox qiymətləndirilir. Bəzən satış zamanı qurudulmuş meyvələrin üzərinə az miqdar duru yağ töküb qarışdırırlar ki, çox parlaq rəng alsın. Alça və tutdan həm də lavaşa hazırlanır. Tut və alça lavaşasının hazırlanması eyni olsa da, tut lavaşası çərəz kimi istifadə olunur. Alça lavaşasından həm ərzaq məhsulu kimi, həm də xalq təbabətində geniş istifadə edilir.

Ərik və şaftalını yarıya bölür, çəyirdəyini çıxardıqdan sonra səbətlərə və yeşiklərə lay-lay yığaraq xüsusi meyvə damında, ya da açıq havada üst-üstə qoyur, közərmiş kömürün üzərinə müəyyən miqdar kükürd tökürlər. Meyvə damının qapı-pəncərəsini bağlayır, açıq havada hazırlanan məhsulun üzərini isə polietilenlə kip örtürlər. Bu proses "kükürdə meyvə qoyma" adlanır. Bir gündən sonra meyvələr çıxarılıb açıq havada qurudulur. Bu cür qurudulan meyvələr kəhrəba rəngində olur və çərəz kimi istifadə edilir. Yemək bişirən zaman isə kükürdə verilməmiş meyvə qurusundan istifadə olunur.

Naxçıvanda qurudulan meyvələrin içərisində üzüm qurusu da xüsusi yer tutur. Üzümdən kişmiş və mövüc hazırlanır. Üzümü qurutmaq üçün onu əvvəlcə təzova tuturlar. Təzov qarağan kolunu yandırıb alınan qatranı suda açmaqla əldə olunan qələyədaşdan hazırlanır. Qələyədaş olmadıqda isə yandırılmış tənəyin külü su ilə qarışdırılaraq qazanda qaynadılır və su durulana qədər gözləyirlər. Üzüm salxımlarını həmin qaynar suya salıb bir-iki dəqiqə saxlayırlar. Sonra isə quruması üçün üzərinə parça sərirlər. Quruduqdan sonra saplaqlar seçilib götürülür.





Qeyd edək ki, bu gün muxtar respublikada ailələr əksər meyvə növlərini qurutmaqla həm qış tədarükü görür, həm də təsərrüfatlarındakı artıq meyvə və meyvə qurularını satış obyektlərinə təqdim edirlər. Naxçıvanda bu yolla ailə təsərrüfatını genişləndirən, bazara çıxardığı məhsullarla rəğbət qazanan sahibkarlar kifayət qədərdir. Ötən il təşkil olunan "Ailə təsərrüfatı məhsulları" festivalında muxtar respublikanın rayonlarından gətirilmiş saysız-hesabsız meyvə qurusu növlərini görmək olardı.

Bu gün meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul olunmuş dövlət proqramının uğurlu icrası yeni meyvə bağlarının salınmasına şərait yaradıb, xaricdən asılılığı aradan qaldırıb. Bərəkətli Naxçıvan torpağında yetişdirilən keyfiyyətli məhsullar bu diyarı dünya miqyasında tanıdan vasitələrdəndir və meyvə quruları da onlardan biridir.

Bəzən müşahidə edirik ki, meyvələrin vaxtında yığılması və qurudulması işinə çoxumuz etinasız yanaşırıq. Məsələn, günlərlə ərik, tut, alça kimi meyvələr, belə desək, tökülüb yerdə qalsa da, onlara sahib çıxmırıq. Dövlət tərəfindən sahibkarlar üçün lazımi kreditlər ayrılır, xammal da ki, yetəri qədərdir. Geriyə qalır müxtəlif meyvə quruları istehsalı ilə məşğul olan ailə təsərrüfatları yaratmaq. Kiçik və orta sahibkarlığın inkişafı üçün münasib olan belə layihələr kənd yerləri üçün daha uyğundur. Bu isə yeni iş yerləri deməkdir.

**Zaleh NOVRUZOV**



## Təbiət hamımızındır

***Hələ uzun əsrlər bundan əvvəl yaranmış "Avesta"da Zərdüşt yaşıllığı gözəllik və həyat mənbəyi hesab edirdi. Həmin müqəddəs kitabda deyilir: "Kim ki əkir, o, müqəddəs iş görmüş olur". Bu qədim yazılı abidədə el şənliklərində, toy və bayram günlərində hər adamın üç ağac əkib-becərməsi tövsiyə edilib. Ulu Dədə Qorqud da öz alqışlarında "Kölgəlicə qaba ağacın kəsilməsin", – deyə öz igidini, yurddaşını alqışlamış, ağacın kəsilməsini ən böyük qəbahət, düşmənçilik kimi qiymətləndirmişdir.***

Şərqin qapısı Naxçıvan çox qədim zamanlardan bağçılıq-meyvəçilik diyarı kimi tanınıb. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi dövründə burada yaşıllıqların yaradılmasına və qorunmasına, yeni massivlərin salınmasına xüsusi diqqət və qayğı göstərilib. ***"Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə hətta o öz ailəsinə, özünə belə xəyanət edir. Ona görə də, siz hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız"***, – deyən ulu öndərimiz Heydər Əliyevin təbiətə olan həssas münasibəti muxtar respublikamızda bu gün də yaşadılır, dahi şəxsiyyətin yeritdiyi çoxcəhətli ekoloji siyasət uğurla həyata keçirilir.

Bu baxımdan muxtar respublikamızda müxtəlif vaxtlarda qəbul olunmuş dövlət proqramları atababalarımızdan bizə miras qalan məhsuldar torpaqların, zəngin meşələrin qorunub saxlanılmasında böyük əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, indi yaşıl turizm həvəskarlarının da əsas səyahət ünvanına çevrilən Naxçıvanda ətraf mühitin təmizliyi, biomüxtəlifliyin yetərincə qorunması, bitki və heyvanat aləminin zənginliyi daha çox diqqət çəkir.

Qədim diyarımız misilsiz təbii gözəlliklər məskənidir. Çünki ilboyu zirvəsi qarla örtülü olan dağlar, könüləcan sərin yaylaqlar, zəngin və nadir landşafta malik ovalıqlar, çaylar, çeşmələr, bulaqlar, canlı və cansız təbiət inciləri Naxçıvanı daha da gözəlləşdirir və onu dünyada tanıdır. Əgər Azərbaycanın ən uca zirvəsində durub Naxçıvana nəzər salsaq, qeyri-adi bir mənzərəni – yaşıl dünya və al-əlvan rəngli güllər diyarını görərik. Bu görüntüdən muxtar respublikamızın hər bir rayonuna ayrıca pay düşür. Naxçıvana ayaq basan hər kəsin könlünü oxşayan mənzərələr – yolboyu sağ və sol tərəflərdə cərgələnmiş ağaclar, salınan gülkarlıqlar, dağ döşündə, yamaclarda əkilən körpə fidanlar təbiətə göstərilən insan qayğısından xəbər verir. Bu qayğını əsirgəməyən bölgə sakinləri əkilən tinglərin, salınan bağların və yaradılan yaşıllıq zolaqlarının məhv olmaması üçün hər həftə iməciliklər yolu ilə aqrotexniki tədbirlər həyata keçirirlər.

Bütün fəsillərdə zəhmətlərini torpaqdan və yaradılan gözəlliklərdən, təbiətimizdən, şəhərin abadlığından əsirgəməyənlər sağlam gələcək üçün görülən işlərə töhfə verirlər. Naxçıvanlı sakinlər iməciliklər zamanı yaşıllıq sahələrini daha da genişləndirməyə, meşə sahələrindəki seyrəklikləri aradan qaldırmağa, ağaclar əkilməsinə, gül kollarının çoxaldılmasına çalışırlar. Elə bunun nəticəsidir ki, ötən il muxtar respublikada meşə fondunun mühafizə olunması, bərpası, yeni meşəliklərin salınması istiqamətində ardıcıl tədbirlər görülüb, 550 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 455 mindən çox ağac və gül kolu əkilib. Cari ilin ilk yarımilində 223 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 222 mindən çox ağac və gül kolu əkilib.

Məlumdur ki, insanların sayının sürətlə artdığı bir zamanda texnika günü-gündən inkişaf edir. Bunun nəticəsində öz inkişafının yüksək mərhələsinə qədəm qoyan bəşəriyyət təbiətə istər-istəməz öz mənfi təsirini göstərir. Hər bir insan çalışmalıdır ki, müxtəlif təsirlər nəticəsində ekoloji tarazlıq pozulmasın. Bunun isə bir yolu var: təbii sərvətlərimizi qorumaq, onlardan səmərəli istifadə etmək və ana təbiətin qayğısına qalmaq. Təbiətimizə olan qayğı, diqqət elə Vətən sevgisindən qaynaqlanır. Vətənini sevən hər bir kəs doğma yurdunun təbiətini də sevməli, onu göz bəbəyi kimi qorumalıdır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Boks üzrə şəhər açıq birinciliyi keçirilib

Dünən İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Kəngərli, Babək və Şərur rayonlarının idmançıları da öz güclərini sınayıblar. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə



25 çəki dərəcəsində 70-ə yaxın dəri əlcək sahibi yarışıb.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 626